**Luis Kerroll**

# *Alisa* güzgüarxası diyarda

qanun nəşriyyatı

**Lewis Carroll**

# Through The Looking-Glass

Bu dəfə Alisa güzgünün içindən keçib inanılmaz bir yerə – güzgüarxası diyara düşür. Alisanın düşdüyü dünya şahmat lövhəsinə, sakinləri isə ağ və qara rəngli şahmat fiqurlarına bənzəyir. Alisa bir xanadan digərinə səyahət edərkən qeyri-adi sehrli varlıqlarla tanış olur. Onun yolu həyəcanlandırıcı və son dərəcə maraqlıdır.

"Alisa güzgüarxası diyarda" azyaşlılar üçün aydın və maraqlı, böyüklər üçünsə düşünməyə vadar edəcək tərzdə yazılıb. Hekayədəki qısa poetik ifadələr gizli fəlsəfi mahiyyət daşıyır və ona görə də kitab oxucunun düşüncə tərzinə güclü təsir edə bilir.

# MÜNDƏRİCAT

***Müəllifdən*** **.......................................................................... 10**

*I fəsil*
**GÜZGÜ-EV ...................................................................... 11**

*II fəsil*
**ÇİÇƏKLƏRİ DANIŞAN BAĞÇA .................................. 26**

*III fəsil*
**GÜZGÜARXASI HƏŞƏRATLAR .................................. 40**

*IV fəsil*
**TRULYALYA VƏ TRALYALYA ...................................... 54**

*V fəsil*
**YUN VƏ SU ...................................................................... 72**

*VI fəsil*
**YUMURTABAŞ ............................................................... 87**

*VII fəsil*
**ŞİR VƏ TƏKBUYNUZ ................................................... 103**

*VIII fəsil*
**BU MƏNİM ÖZ İXTİRAMDIR!....................................... 116**

*IX fəsil*
**KRALİÇA ALİSA ................................................................. 136**

*X fəsil*
**SİLKƏLƏMƏ......................................................................... 155**

*XI fəsil*
**OYANMA............................................................................... 156**

*XII fəsil*
**BU KİMİN YUXUSU İDİ? .................................................. 157**

Bu nüsxənin altmış bir mininci nəşrini çap etmək üçün taxta formalarda yeni klişelər hazırlanmışdır (onlardan çap üçün bilavasitə istifadə olunmadığı üçün 1871-ci ildə hazırlandıqları kimi əla vəziyyətdə qalmışdır).

Kitab yeni şriftlərlə yığılmışdı. Əgər bu nəşr bədii cəhətdən özündən əvvəlkilərdən keyfiyyətsiz olarsa, bu nə müəllifin, nə nəşriyyatın, nə də mətbəə evinin günahı deyildir.

Fürsətdən istifadə edib ictimaiyyəti məlumatlandırmaqdan ötrü deməliyəm ki, bu gün üz qabıqsız 4 şillinq dəyərinə satılan "Alisa uşaqlar üçün" adi şəkilli kitablarla eyni şərtlərdə satılır. Hərçənd əminəm ki, o bütün hallarda onları üstələyir.

(Mətnin özü istisna olmaqla, hansı ki onu müzakirə etməyə hüququm yoxdur.)

Bu kitabın nəşri üçün sərf etdiyim ciddi xərcləri nəzərə alsaq, 4 şillinq ağlabatan, münasib qiymətdir.

Oxucular: "Tərtibatı necə olursa, olsun, biz kitablara 4 şillinqdən artıq pul vermək arzusunda deyilik", – desələr də, uşaqları məyus etməməkdən ötrü onlar üçün yazılan bu kitabı ucuz qiymətə satmaqla kitabın nəşrinə sərf etdiyim xərci itki kimi hesab etməyə razıyam. Mən onu bu qiymətə satmaqla sanki kitabı onlara hədiyyə etmiş oluram.



**Ağ piyada (Alisa) başlayır və 11 gedişə Kraliça olur.**

1. Alisa Qara kraliçanı qarşılayır.
1. Qara kraliça h5-ə yerdəyişmə edir.
2. Alisa d3 üzərində (dəmiryol d4-ə aparır). Tralyalya və Trulyalya
2. Ağ kraliça c4-ə gedir (şalı alır).
3. Alisa Ağ kraliça ilə qarşılaşır (şal ilə).
3. Ağ kraliça c5-ə gedir (qoyun olur).
4. Alisa d5-ə doğru (piştaxta, çay, piştaxta).
4. Ağ kraliça f8-ə gedir (rəfdə yumurta saxlayır).
5. Alisa d6-ya gedir (Yumurtabaş ).
5. Ağ kraliça c8-ə gedir (Qara atdan xilas olur).
6. Alisa d7-yə gedir (meşə).
6. Qara at e7-yə gedir.
7. Ağ at Qara atı götürür.
7. Ağ at f5-ə yer dəyişir.
8. Alisa d8-ə gedir (tacqoyma).
8. Qara at e8-ə gedir (“imtahan”).
9. Alisa Kraliçadır.
9. Kraliçalar qala qurur.
10. Alisa “qala qurur” (ziyafət).
10. Ağ kraliça a6-ya yer dəyişir (şorba).
11. Alisa Qara kraliçanı götürür və partiyanı udur.

**Oyundan qabaqkı düzülüş:**

***Ağlar:***

Fiqurlar: Trulyalya, Təkbuynuz, Qoyun, Ağ kraliça, Ağ kral, Qoca, Ağ cəngavər, Tralyalya.

***Qaralar:***

Fiqurlar: Yumurtabaş , Dülgər, Morj, Qara kraliça, Qara kral, Qarğa, Qara cəngavər, Şir.

***Piyadalar:***
Qızçiçəyi, Yadelli, Dəniz ilbizi, Qırmızı zanbaq,
Qızılgül, Dəniz ilbizi, Qurbağa, Qızçiçəyi.

Alnıaçıq uşaqlarla
Və təəccüblü nəzərlərlə
Dəyişsin qoy bütün ətraf.
Səninlə bir deyilik biz,
Ayırsın qoy illər bizi,
Nağılı edim sənə ithaf!

Mən səni görürəm yalnız yuxuda,
Sevimli gülüşünü eşitmirəm, əzizim.
Sən böyümüsən, bəlkə, mənim haqqımda,
Çox güman ki, heç vaxt xatırlamazsan.
İndi mənə kifayətdir ki,
Mənim nağılıma qulaq asasan.
Bir iyul səhəri tezdən o,
Neçə il bundan əvvəl başlanıb.
Bizim qayığımız hekayəm ilə
Həmahəng, uzun bir yola yollanıb.
İllər mənə onu unut desə də,
Xatırlayıram mən o mavi yolu!

Əziz dostum, günlər ötüb-keçəcək,
Dəhşətli bir səs eşidiləcək.
O səs sənə "Yat!" deyib əmr edəcək.
Bax onda mübahisə yersiz olacaq,
Beləcə yatağa uzanmayan
Uşaqlara bənzəyəcəyik biz.

Ətraf şaxta, qar göz qamaşdırır,
Hər yer boşdur səhra kimi.
Bizdə isə sevinc, uşaq qəhqəhəsi.
Buxarıda ocaq yanır,
Nağıl bəladan qurtarır,
Qoy səni də xilas etsin o!

Azca kədər dolaşır
Mənim sehrli nağılımda.
Yay bitərsə, qoy bitsin,
Amma rəngləri solmasın!
Bir də şərin bədxah nəfəsi
Nağılımı kədərləndirməsin!

## *Müəllifdən*

Bundan öncəki səhifədə verilmiş şahmat məsələsi bəzi oxucularımızı çıxılmaz vəziyyətə salmışdır. Mən oyunun onlara məxsus qaydalara uyğun tərtib olunduğunu açıqca izah etməliyəm.

Düzdür, ağ və qaraların hərəkət ardıcıllıqları tələb olunan qaydada nizamlanmasa da, hər üç Kralın "qala" qurması onların saraya düşməsindən xəbər verir. Kim əziyyət çəkib fiqurların hərəsini öz yerinə qoysa, göstərilən məlum gedişləri oynasa, əmin olar ki, 6-cı gedişdə Ağ krala "şah", 7-ci gedişdə Qara atın uduzması, finalda isə Qara kralın "mat" vəziyyəti heç də oyunun qaydalarına zidd deyildir.

"Barmaqlot" şeirində istifadə olunan yeni sözlər də tələffüzünə görə məlum fikir ayrılıqlarına səbəb olmuşdur. Bu punktda mən onlara da kiçik aydınlıq gətirməliyəm. Belə ki, "Kövrək" sözündə vurğu birinci hecaya, "xoruldayırdılar" sözündə üçüncüyə, "yaşıl donuzlar" sözündə isə sonuncu hecaya düşməlidir.